Hacı Zeynalabdin Tağıyev – 200

# Kasıb başmaqçı oğlu - mesenat milyonçu

**Düz iki əsr öncə Bakının üfüqlərindən boy göstərən xeyirxahlıq günəşi – Hacı Zeynalabdin Tağıyev daim rəhmətlə anılan ünlü soydaşlarımızdandır. İndi də onun haqqında əfsanələr dolaşır, yaxşılıqları, millət yolunda göstərdiyi fədakarlıqlar nümunə göstərilir.**



Hacı Zeynalabdin 1823-cü ildə Bakıda kasıb başmaqçı ailəsində anadan olub. On yaşına çatanda atası onu bənna yanında şagird qoyub. İki-üç ilə püxtələşən gənc bir müddətdən sonra tikinti ustası və təşkilatçısı kimi tanınmağa başlayıb. Artıq 20 yaşında ev tikintisi və daşyonma işləri təşkil edib. Özünün sonrakı tikinti işlərinə də şəxsən nəzarət edib. Tikdirdiyi binalarda onun dəsti-xətti hiss olunub.

Sonralar özünü ticarətdə və yüngül sənayedə də sınayan Hacı bu sahələrdə də uğur qazanıb, dükanlara və manufakturaya sahib olub. O, həm də Bakı neftini, Xəzər dənizi və Qafqaz dəmir yolu vasitəsilə ixrac edən ən böyük sahibkarlardan sayılıb. Ağ neft və sürtkü yağı zavodları, gəmiləri olan sahibkar, eyni zamanda toxuculuq, balıqçılıq və enerji sənayesi sahələrində də fəal quruculuq işləri görüb. Amma Hacı Zeynalabdini fərqləndirən əsas cəhət onun halallıqla qazandıqlarını el yolunda məmnuniyyətlə xərcləməsi, xalqın balalarını, o cümlədən də qızları təhsilə cəlb etməsi olub. Təsadüfi deyildi ki, Bakıdakı müsəlman, rus, erməni və yəhudi xeyriyyə cəmiyyətlərinin hamısı onu özlərinə fəxri sədr seçmişdilər. Sovet hakimiyyətinin gəlişi ilə bütün sərvəti əlindən alınmış Hacı ömrünün sonuna qədər Mərdəkandakı ata ocağında yaşayıb.

...Ötən ilin yanvarında Azərbaycan Prezidenti İlham Əliyev "İçərişəhər" stansiyasının qarşısındakı meydanda Hacı Zeynalabdin Tağıyevin abidəsinin açılışında iştirak edib. Tarixi qala divarlarının yanında ucaldılan bu abidə möhtərəm şəxsiyyətin xatirəsinə böyük ehtiramın təzahürüdür. Dövlət başçısı mərasimdə bildirib ki, sərvətini öz zəhməti ilə qazanmış Hacı Zeynalabdin tarixdə sadəcə zəngin adam kimi deyil, daha çox böyük xeyriyyəçi kimi qalmışdır. Onun təşəbbüsü ilə Azərbaycanda həyata keçirilən çox önəmli layihələrdən birincisi Bakıya təmiz içməli suyun gətirilməsidir. Şollar su kəməri bu gün də fəaliyyətdə, əhalini aydınlığa qovuşdurmaqdadır. Onun təşəbbüsü və maliyyə dəstəyi ilə Bakıda teatr binası tikilib, bir çox müəssisə inşa edilib, azərbaycanlı qızlar üçün ilk dünyəvi məktəb açılıb. Özü də bu, müsəlman aləmində ilk dünyəvi məktəb olub. Eyni zamanda, Naxçıvanda, Gəncədə, Şamaxıda, Gürcüstanda azərbaycanlıların yaşadıqları bölgələrdə Hacının pulu hesabına məktəblər açılmışdır. Onu da xatırladaq ki, Hacı yüzlərlə tələbəni Rusiyaya və Avropaya oxumağa göndərməklə onların təhsil xərcini ödəyib ki, bu da xalqın gələcəyinə yönəlmiş bir addım idi. Qurani-Kərimin ilk dəfə Azərbaycan dilinə tərcümə edilməsi, Bakıda tramvay xətlərinin açılması da Tağıyevin adı ilə bağlıdır.

Əslində, ötən il heykəli qoyulandan xeyli əvvəl Hacı Zeynalabdin Bakıda özü üçün bir çox abidələr ucaltmışdı. Bunlar indi də paytaxtımıza xüsusi gözəllik verən tarixi memarlıq binalarıdır. Onun evi – hazırda Tarix Muzeyi olan əzəmətli bina, əsaslı şəkildə təmir edilmiş Azərbaycan Dövlət Akademik Musiqili Teatrının binası, Tağıyev pasajındakı "Bakı" univermağı, məktəblər, məscidlər bu qəbildəndir. Başqa şəhərlərdə də sağlığında özünə abidələr ucaldıb. Məsələn, Moskvada 4 mərtəbəli iri saray, İranda karvansaralar və sair.

Hacı Zeynalabdin Tağıyevlə bağlı ibrətamiz əhvalatlar da çoxdur. Onlardan biri belədir: Bir gün Bakı varlıları Hacıya şikayət edirlər ki, ermənilər şəhərin aşağı məhəllələrində evlər tikdirirlər. Tədbir görüb, bunun qabağını almaq lazımdır. Hacı deyir: "Qoy tikdirsinlər. Qabağını almaq lazım deyil. Mən özüm də onları şirnikləndirirəm ki, tikdirsinlər. Gedəndə heç kəs binaları dalına şələləyib aparmayacaq. Onlar gedəcək, binalar isə qalacaq".

...Birdən-birə milyonlar səltənətinə düşərək, xeyirxahlıq mücəssəməsinə çevrilmiş Hacı Zeynalabdin Tağıyevin ruhunu hər zaman ehtiramla anırıq.

**Əli NƏCƏFXANLI,**
**"Xalq qəzeti"**